**“Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 26-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, 7, maddə 813; 2016, 3, maddə 411, 11, maddə 1756, 12, maddə 2003; 2017, 2, maddə 159, 5, maddə 712, 12, I kitab, maddə 2222; 2018, 5, maddə 893, 7, I kitab, maddə 1395) aşağıdakı dəyişikliklər edilsin:

1. 77.2-ci maddəyə “emitentlər” sözündən sonra “(Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatlar istisna olmaqla)” sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 78.7.1-1-ci maddə əlavə edilsin:

“78.7.1-1. Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatların emissiya etdiyi qiymətli kağızlarla olan əməliyyatlara;”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 fevral 2019-cu il
1474-VQD